BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2015*

UOT 327.72+(479.24)

# AZƏRBAYCAN-ATƏT MÜNASİBƏTLƏRİ (XX ƏSRİN 90-CI İLLƏRİ)

**H.Ə.BƏXTİYAROV**
***Gəncə Dövlət Universiteti***
***bextiyarov.huseyn@box.az***

*Məqalədə XX əsrin 90-cı illərində Azərbaycan-ATƏT münasibətləri araşdırılmışdır. Qeyd edilmişdir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən dərhal sonra ATƏM-ə daxil olmuşdur. 1993-cü ilin iyunundan sonra Azərbaycan-ATƏT münasibətlərində yeni mərhələ başlanmışdır. Bu istiqamətdə Lissabon sammiti mühüm rol oynamışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan-ATƏT münasibətlərində aparıcı yer tutmuşdur.*

**Açar sözlər:** Azərbaycan, ittifaq, müstəqil, respublika, iqtisadi

Avropada sülh və təhlükəsizliyin qorunmasında mühüm rolu olan ATƏT 1994-cü ilin dekabrında yaradılmasına baxmayarq, onun ilkin forması ATƏM olmuşdur ki, bu təşkilat uzun illər ərzində öz fəaliyyətini bir neçə istiqamətdə davam etdirmişdir. ATƏM-in 90-cı illərədək keçdiyi inkişaf yolu təşkilatın qarşısına qoyduğu vəzifələri ardıcıl yerinə yetirməyə çalışdığını məntiqi baxımdan təsdiq edir. Sovet İttifaqının süqutundan sonra ATƏM-in fəaliyyət istiqamətləri genişlənməyə başladı. Belə ki, postsovet ölkələrinin əksəriyyətində baş verən münaqişələr ATƏM rəhbərliyində onlara ciddi münasibət bildirməyi tələb edirdi. Digər tərəfdən isə yeni müstəqillik qazanmış dövlətlər ATƏM-in beynəlxalq siyasi və iqtisadi nüfuzundan istifadə edərək milli problemlərini həll etməyə çalışırdılar. Təbii ki, belə dövlətlər sırasında böyük qurbanlar bahasına müstəqilliyə qovuşmuş Azərbaycan dövləti də vardı.

Müstəqil Azərbaycan Respublikasının yaranmasından sonrakı ilk aylardan etibarən ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı istiqamətində real addımlar atılmağa başlandı. Belə ki, dövlətimizin Avropa təhlükəsizlik sisteminə cəlb edilməsi respublikamızın beynəlxalq birlikdə təmsil olunmasına əlverişli zəmin yaratdı. Tezliklə, hələ 90-cı illərdə ATƏM adlanan təhlükəsizlik sisteminə yaxınlaşma baş verdi və 1992-ci il yanvarın 30-da Azərbaycan Respub-

likası ATƏM-ə üzv qəbul olundu. Bu, respublikamızın daxil olduğu ilk Avropa təşkilatı idi (6, 1-3 ).

Qeyd etmək lazımdır ki, çox keçmədən Azərbaycan və ATƏM arasında geniş əməkdaşlıq əlaqələri yarandı və inkişaf etməyə başladı. Belə ki, 1992-ci ilin fevral ayından etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏM-in prinsipləri rəhbər tutulmaqla üzv dövlətlərin müzakirə obyektinə çevrildi. Həmin ilin fevralın ortalarında ATƏM-in xüsusi komissiyasının ölkəmizə gəlməsi də bunu təsdiq edir. Maraq doğuran hallardan biri ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycan Respublikasının Ermənistanla münaqişəsi ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) iclasında ciddi şəkildə müzakirə olundu. Qeyd edildi ki, sərhədlərin dəyişdirilməməsi şərtilə Dağlıq Qarabağ Azərbaycan Respublikasına mənsubdur (6, 1-3).

Məlum olduğu kimi, 1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeşt zirvə toplantısı keçirildi. Budapeşt sammiti ATƏM-in tarixində mühüm bir dövrün başlanğıcını qoydu (4, 454). Belə ki, 1995-ci il yanvarın 1-dən ATƏM Avropada Təhlükəsizlik və Əmkdaşlıq Təşkilatına çevrildi. ATƏT-in rəhbər orqanı üzv dövlətlərin xarici işlər nazirlərindən ibarət olan Nazirlər Şurası oldu (3, 326).

Budapeşt sammitində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarlar da qəbul olundu. Belə ki, ilk dəfə olaraq sammitdə Avropa təhlükəsizlik tədbirlərində iştirak edəcək sülhməramlı qüvvələrin yaradılması və münaqişəli bölgələrə göndərilməsi qərara alındı. Eyni zamanda ilk sülhməramlı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə göndərilməsi haqqında razılıq əldə edildi. Bununla yanaşı olaraq Minsk prosesi çərçivəsində həmsədrlik institutu da təsis olundu. Sammitdə qəbul edilmiş "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnamə xüsusi əhəmiyyət kəsb edirdi. 1994-cü il dekabrın 20-də Vyanada Ermənistan-Azərbaycan münaqişəsi üzrə ATƏT-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu təsis olundu. Bu, ATƏT çərçivəsində münaqişənin daha tez həll edilməsinə kömək etməli idi (6, 1-3).

Azərbaycan Respublikasının ATƏT ilə münasibətlərində 1996-cı il dekabrın 2-3-də keçirilən Lissabon sammiti mühüm əhəmiyyət kəsb edir. Sammitdə Avropada təhlükəsizliyi və əməkdaşlığı təmin etməyə xidmət edən sənədlər qəbul edilir. Bu sənədlərə XXI əsr Avropa evi üçün ümumi və hərtərəfli təhlükəsizlik modeli haqqında Bəyannamə də daxil idi (5, 443).

Lissabon zirvə toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair iştirakçı dövlətlər tərəfindən bəyanat verildi. Bu sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün, birinci, Ermənistan Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması, ikinci, Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu – muxtariyyət hüququ verilməsi, üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinə - ermənilərə və

azərbaycanlılara təhlükəsizliyik təminatı verilməsi kimi üç mühüm prinsip irəli sürüldü (2, 344).

Qeyd etmək lazımdır ki, bu prinsiplər ATƏT-in fəaliyyətdə olan sədrinin 54 üzv dövlətdən 53-ü (Ermənistan etiraz etmişdi), o cümlədən ABŞ, Rusiya, Fransa və b. adından verdiyi bəyanatda əks olunmuşdu. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qan tökülmədən həllinə çalışırdı. Onun siyasi uzaqgörənliyi və iradəsi sayəsində ATƏT-in Lissabon sammitində (1996 dekabr) Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən (ABŞ, Rusiya, Fransa və b.) tanındı və müdafiə olundu (1, 330).

Azərbaycan və ATƏT arasında əməkdaşlıq 90-cı illərin sonlarına doğru uğurla davam etmişdir. 1997-1998-ci illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Minsk qrupunun həmsədrləri tərəfindən üç təklif verilmişdir. Bu təkliflərdən ilk ikisi Ermənistan tərəfindən, sonuncu təklif isə Azərbaycan Respublikası tərəfindən qəbul edilməmişdir. Bu, münaqişənin həllinə yaxın bir hal olsa da, məsələ öz həllini tapa bilmədi.

1999-cu il noyabrın 18-19-da ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti İstanbul zirvə toplantısı keçirildi. Noyabrın 18-də sammitin iştirakçıları olan Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair saziş imzaladılar (5, 443).

Görüşdə təmsil olunan Azərbaycan dövləti İstanbul bəyannaməsinə və Avropa Təhlükəsizliyi Xartiyasına qoşulur. Bununla dövlətimizlə ATƏT-in Demokratik Təşkilatlar və İnsan Hüquqları Bürosu arasında əməkdaşlıq münasibətləri yaranır. 1998-ci ildən etibatən Azərbaycan Respublikası ilə DTİHB-nun geniş əməkdaşlığı sayəsində qanunvericilik, xüsusilə, seçki qanunvericiliyinin təkmilləşdirilməsi, miqrasiya, habelə, gender bərabərliyi sahələrində çoxsaylı layihələr həyata keçirilir. Təsadüfi deyildir ki, DTİHB-nun nümayəndələri ölkəmizdə keçirilmiş prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak etmişdir.

Azərbaycan və ATƏT arasında əməkdaşlığın istiqamətlərindən biri də təşkilatın Mətbuat Azadlığı üzrə nümayəndəsi ilə münasibətlər idi. Bu baxımdan 2001-ci ilin dekabrında ATƏT-in Mətbuat Azadlığı üzrə Nümayəndəsinin Ofisi və AR Xarici İşlər Nazirinin birgə təşəbbüsü əsasında Azərbaycanın gənc jurnalistləri üçün “Azərbaycanda Mətbuat Azadlığı və Məsuliyyətinin inkişafı” mövzusunda seminarın keçirilməsi mühüm əhəmiyyət daşıyırdı. Seminarın əhəmiyyəti həm də onunla səciyyələnirdi ki, Ofislə Azərbaycan arasında əməkdaşlığın dərinləşdirilməsi və Jurnalistikada davranış qaydaları müzakirə olunurdu (6, 3).

Azərbaycan-ATƏT münasibətlərində Milli Azlıqlar məsələsi də diqqəti cəlb edirdi. Doğrudur, Azərbaycan Respublikası ATƏT-in tamhüquqlu üzvü olduğundan təşkilatın Milli Azlıqlar üzrə Ali Komissarının Ofisi ilə əlaqələr yaratmışdı. Ancaq Milli Azlıqlar üzrə Ali Komissarının mandatına, habelə,

ölkəmizin Milli Azlıqların hüquqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlərə və bu istiqamətdə keçirdiyi tədbirlərə baxmayaraq, Ali Komissarın Ofisi ilə Azərbaycan arasında münasibətlər kifayət qədər inkişaf etməmişdi.

Bütün bunlara baxmayaraq, ATƏT-in Parlament Assambleyasının ölkəmizə münasibəti əməkdaşlığa geniş şərait yaratmışdı. Buna görə də, Azərbaycan Parlamenti ilə ATƏT-in PA-sı arasında əlaqələr qurulmuş və azərbaycanlı deputatlar hər il PA-nın iclaslarında iştirak edir. Təbii ki, dövlətimizin daha fəal mövqe nümayiş etdirməsi ATƏT-in Bakıda Ofisinin yaradılması haqqında 1999-cu il noyabrın 16-da təşkilatın Daimi Şurasının 318 saylı qərarının qəbul olunmasına təkan vermişdir. Həmin qərarın qəbulundan sonra 1999-cu il noyabrın 25-də Qarşılıqlı Anlaşma Memorandumunun imzalanması Azərbaycan-ATƏT münasibətlərinin inkişafında ciddi rol oynamışdır. 2000-ci il iyulun 18-də ATƏT-in Bakıdakı Ofisinin açılışı isə bunun bariz nümunəsi idi (6, 3). Bir vacib məqamı da qeyd etmək lazımdır ki, Azərbaycan və ATƏT arasında əməkdaşlığı daha da möhkəmləndirmək məqsədilə ölkəmizdə ATƏT-in Dostları Qrupu yaradılmışdır.

Bütün bunlar təsdiq edir ki, 1990-cı illərin əvvəllərindən etibarən Avropa təhlükəsizlik sisteminə cəlb olunmuş Azərbaycan Respublikası əsrin sonunadək bu sistemdə genişmiqyaslı fəaliyyət göstərmişdir. Təbii ki, bu fəaliyyət ölkəmizin milli maraqlarının daha ciddi müdafiə edilməsinə təkan vermişdir. Bu istiqamətdə isə Ulu öndər Heydər Əliyevin xidmətləri əvəzsiz olmuşdur.

Ancaq, bir faktı təəssüflə qeyd etmək lazımdır ki, Avropada və dünyada mühüm nüfuza malik olan ATƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail ola bilməmiş və münaqişə bu gün də davam etməkdədir. Bütün bunlara baxmayaraq, xalqımız ölkə prezidenti, cənab İlham Əliyevin rəhbərliyi altında problemin ədalətli həllinə inanır və əzmlə mübarizə aparır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensiklopediyası. Bakı: 2007.
2. Azərbaycan tarixi.VII cild. Bakı: 2008.
3. Fətəliyev M., Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə. Bakı: 2008.
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005.
5. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. (1945-2007-ci illər). Bakı: 2011.
6. Az.wikipedia.org/wiki/Azərbaycan-ATƏT əlaqələri.

## ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАН-ОБСЕ (90-е годы XX века)

Г.А.БАХТИЯРОВ

## РЕЗЮМЕ

В 90 годы XX века в статье рассмотрены отношения между Азербайджаном и ОБСЕ. Было отмечено, что после восстановления государственной независимости Азербайджан вступил сразу в ОБСЕ. С июня 1993 года начался новый этап в отноше-

ниях между Азербайджаном и ОБСЕ. Лиссабонский саммит сыграл важную роль в этом направлении. Армяно-азербайджанском, Нагорно-Карабахском конфликте занял ведущее место в отношениях между Азербайджаном и ОБСЕ.

**Ключевые слова:** Азербайджан, союз, независимый, республика, экономика

**AZERBAIJAN-OSCE RELATIONS (90s OF THE XX CENTURY)**

**H.A.BAKHTIYAROV**

**SUMMARY**

The article examines the relations between Azerbaijan and the OSCE in the 90 years of the XX century. It was noted that, Azerbaijan entered the OSCE after it gained its independence. After June 1993, the OSCE started new stage in the relations. The Lisbon summit played an important role in this direction. The OSCE took a leading position in the Armenian-Azerbaijani Nagorno Karabakh conflict.

**Key words:** Azerbaijan, union, independent, republic, economic.